## *PEDAQOJİ ELMLƏR*

# Heydər Əliyev şəxsiyyəti və idealları – dövlətçilik ənənələri tariximizin zirvəsi kimi

**Gülzar Elşad qızı Məhərrəmova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** fidan.meherremova.1993@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** şəxsiyyət, tarix, ənənə, dövlət, siyasət, müstəqillik, vətən, inkişaf
**Ключевые слова:** личность, история, традиция, государство, политика, независимость, родина, развитие
**Key words:** personality, history, tradition, state, politics, independence, motherland, development

Azərbaycan xalqı tarixi inkişaf yolu keçmişdir. Bu yol milli varlığını qorumaq naminə əzablı, keşməkeşli, mübarizələrlə dolu olmuşdur. Xalqımız doğma yurdun, əzəli-əbədi torpaqlarının düşmən təcavüzündən qurtulması, dövlətçiliyin mühafizəsi və möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunub saxlanması üçün əsrlərlə mübarizə aparmışdır. Bu müqəddəs mübarizə salnamələrini isə Vətənin böyük övladları, tarixi şəxsiyyətləri yarada bilmişdir. Onlar dövlətçilik ənənələri formalaşdırmış, iqtisadiyyatın dinamik inkişafına nail olmuş, milli dövlətçilik siyasətimizi müəyyənləşdirmiş, mədəniyyətimizin nadir incilərinin yaranması və inkişafını dəstəkləmiş, onları dünya mədəniyyətinə qovuşdurmuşdur.

Heydər Əliyev ruhi – daxili aləmi, sözü və əməli, fikir və düşüncələri, humanistliyi, əqidəliliyi və iradi keyfiyyətləri ilə xalqına, vətəninə bağlılığı ilə özünə qarşı sonsuz məhəbbət oyatmış, dövlət və dövlətçilik siyasətinin bütün dünyada yeni məzmun istiqamətini, modelini yarada bilmişdi.

Heydər Əliyevin xalqımıza həsr olunmuş mübarizələrlə dolu həyat yolu bütöv bir dövrün, epoxanın canlı salnaməsidir. O, Azərbaycan xalqının iradəsini ifadə edərək demokratik – dünyəvi bir dövlət yaratdı. Təkcə müstəqil Azərbaycan Respublikasının prezidenti olduğu on il ərzində əbədiyaşar bir dövlətin təməl daşlarını qoydu, gələcək nəsillər üçün ərmağan etdi. Bu çox qısa zaman kəsiyində Azərbaycan dili əsərini yazdı, tamamladı. Müstəqillik yolunda inamla irəliləyən respublikanın hazırki inkişaf səviyyəsinə gəlib çatmasında məhz ictimai islahatların, sosial-quruculuq işlərinin böyük əhəmiyyəti vardır.

Qədim tarixə malik dövlətçilik ənənələrimizin yeni tarixi dövrdə qorunub saxlanması, möhkəmləndirilib gələcək nəsillərə ərmağan edilməsi işi də vahid, bütöv bir proses kimi başa çatdırılmış, "maddiləşdirilmişdir". Azərbaycan dövlətinin möhkəmləndirilməsi, müstəqilliyimizin dönməzliyinin, əbədiliyinin təmin olunması dahi şəxsiyyətin, ulu öndərin adı ilə həmişə birgə çəkiləcək, Azərbaycan - Heydər Əliyev əbədiyaşar olacaqdır.

Ümummilli lider tarixən formalaşmış dövlətçilik ənənələrinə də xüsusi diqqət yetirmiş, həssas münasibət göstərmişdir. Heydər Əliyev dövlətçilik ənənələrinin qədim köklərini, tarixi şüurumuzun bərpa olunmasını diqqətlə saxlamaq, yetişən nəsli bu ruhda böyütmək işinə böyük

diqqət yetirməyi tövsiyə edirdi. Müstəqil dövlət qurmaq yolunda uğurların, əzm və fədakarlıq göstərməyin əsasını, köklərini uzaq və yaxın tariximizdə axtarmaq lazım gəlir. "Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın Vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir" (39).

Dövlətçilik ənənələrinin bərpa olunması, müstəqilliyimizin əbədi, sarsılmaz, dönməz olması təkcə siyasi müstəqilliklə məhdudlaşmır. Bu həm də ölkənin sərhədlərinin toxunulmazlığı, milli-maraqların və iqtisadi müstəqilliyin təmin edilməsi deməkdir. Aparılan düzgün siyasət sayəsində Azərbaycan Respublikası hüquqi və siyasi suverenliyə, real müstəqilliyə nail ola bilmişdir. İqtisadiyyat və mədəniyyəti, milli-mənəvi dəyərləri özündə tam əks etdirən Azərbaycan Respublikası, bununla da müstəqillik yolunun nədən ibarət olduğunu real fakt kimi göstərə bilmişdir. Milli ideologiyamız, xalqımızın sosial idealı, dünyagörüşü bir sözlə, Azərbaycan gerçəkliyi tam bir sistem kimi Heydər Əliyev dühası ilə zənginləşmiş, tamamlanmışdır.

Heydər Əliyev dərin zəkaya, xüsusi istedada malik olan nüfuzlu dövlət xadimi kimi Azərbaycan dövlətçiliyinin milli və bəşəri normalara əsaslanan uzunmüddətli ilk sivil konsepsiyası, demokratik prinsiplərə əsaslanan yeni konstitusiyanın hazırlanması ölkə üçün uğurlu addım idi. Bu konstitusiya Azərbaycanın müstəqil, dünyəvi dövlət kimi, ümumbəşəri dəyərlər əsasında, hüquqi dövlət qurmaq yolu ilə getməsini müəyyənləşdirdi. Ümummilli lider ictimai fikir qarşısında duran bu böyük məsuliyyətli işin də əsas prinsiplərini müəyyənləşdirməklə milli inkişaf yolunu işıqlandırdı. Azərbaycan Respublikasının Konstitusiyası Heydər Əliyevin dövlətin ölkə ərazisində yaşayan bütün əhalisinin hüquqlarının təminatçısı olduğunu təsdiq etdi.

Heydər Əliyevin ümummilli lider kimi xidmətlərindən biri də milli ideologiyamızın məzmun istiqamətini formalaşdırması idi. Məhz onun qüdrətli zəkası, yalnız müdriklərə məxsus həyat təcrübəsi sayəsində milli ideologiyamızın təməl daşları qoyuldu, sosial-iqtisadi, mədəni-mənəvi həyatın inkişaf perspektivləri müəyyən edildi. Milli ideologiyanın hansı əsaslar üzərində qurulması, onun mahiyyəti, məzmunu, bu konsepsiyanın həyata keçirilmə mexanizmi, istiqamətləri dahi strateqin müxtəlif dövrlərdəki nitqlərində, çıxışlarında əks olunmuş, əməli fəaliyyətində əsas prinsip kimi təzahür etmişdir.

Milli ideologiyanın formalaşdırılması istiqamətində görülən işlər onu göstərir ki, milli ideologiyamızın formalaşdırılması ümumtəhsil məktəblərindən, burada tədris olunan fənlərin imkanlarından bacarıqla istifadə olunmasından başlamalıdır. Bütün fənlərin tədrisinə diqqət və qayğı göstərilməli, bu məsul vəzifənin yerinə yetirilməsi işində müəllimlərimiz fədakarcasına çalışmalıdır. Ancaq bütün bunlarla yanaşı, milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Azərbaycan tarixi gərək orta məktəblərimizdə gənclərimizə yaxşı aşılansın. Gənclərimiz öz tarixini, öz tarixi köklərini və öz keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı dövlətçiliklə bağlıdır.

Ümummilli liderin fikrincə, milli ideologiyamız iki çox mühüm komponentdən, birincisi milli dövlətçilik, ikincisi milli-mənəvi dəyərlərdən ibarətdir. Milli-mənəvi dəyərlərin mahiyyəti üçün zəruri olan tərkib hissələri də müəyyənləşdirirdi: dil, din, adət-ənənə. Bütün bunlar isə milli mentalitet formalaşdırılması prosesində çox yüksək səviyyədə bağlıdır. Gənclərin yaxşı tərbiyə alması, təhsilinin müasir tələblər səviyyəsinə çatdırılması üçün hər bir vətəndaşın borclu olduğu, məsuliyyət daşıdığı real həyatdan gələn tələblərdi. Bütün bunlar Azərbaycanda gedən

bugünkü proseslər baxımından əhəmiyyətli idi. Ona görə də mənəvi tərbiyə istiqamətində görülməsi zəruri olan işlər, onun məzmunu, məqsəd və vəzifələrinə kamil bir dialektik kimi qarşıda dayanılır, həyata keçirilməsi yolları göstərilir.

Milli-mənəvi dəyərlərimizin öyrənilməsi, qorunub saxlanılması və inkişaf etdirilməsi bu gün əsas vəzifələrdən biri kimi qarşıda dayanır. Bunları qoruyub saxlayan xalq həmişə müstəqillik yolu ilə getmək və müstəqilliyi qorumaq əzmində olacaqdır. Çünki milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Bu həyati həqiqəti xalqın bütün təbəqələrindən olan vətəndaşlara çatdırırdı. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Milli dövlət təkcə ərazi və iqtisadi sərvətlərlə ölçülmür, bu həm də milli-mənəvi dəyərlərin qorunmasıdır. Ölkənin müstəqilliyini hər cəhətdən inkişafının təmin olunmasını milli-mənəvi dəyərləri qoruyub saxlamaq kimi ali məqsədlərdən kənarda təsəvvür etmək olmaz. Məktəblilərin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir. Böyüyən nəsil də bilməlidir, vətəndaşlarımız da bilməlidir ki, mənəvi tərbiyəni daim artırmaq və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz.

Əlbəttə, bu mühüm vəzifənin həyata keçirilməsi üçün münbit zəmin, tarixi əsas vardır. Xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır.

Hər bir gənc Azərbaycanın dövlətçiliyinin qoruması üçün vətəni sevməlidir. Ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən məktəbli həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, bizim ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir.

Mənəviyyatımızın əsasında ilk növbədə böyüyən nəslin vətənpərvərlik tərbiyəsi dayanır. Vətənpərvərlik isə milli dəyərlərimizi, tariximizi, dilimizi bilməyi qoruyub saxlamaqdan başlanır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaqdır.

**Məqalənin aktuallığı.** Dövlətçilik ənənələri tariximizi yaşatmaq – qoruyub saxlamaq və gələcək nəsillərə çatdırılmasında ümummilli lider Heydər Əliyevin böyük rolu olmuşdur. Məqalədə də məhz bu sahədə Heydər Əliyev şəxsiyyəti və ideallarının əvəzsiz xidmətlərindən söhbət açılır ki, bütün bunları da böyüməkdə olan nəsil heç zaman unutmamalıdır. Bu baxımdan məqalə olduqca aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə ulu öndər Heydər Əliyevin xalqımıza həsr olunmuş mübarizələrlə dolu həyat yolunun ayrı-ayrı məqamlarına toxunulmuş, dövlətçilik ənənələrimizin müdafiəsi, yetişən nəslin məhz bu ruhda böyüdülməsi, milli ideologiyamızın məzmun istiqamətinin formalaşdırması və s. sahələrdə onun məqsədyönlü fəaliyyəti konkret faktlarla göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də Heydər Əliyev irsinin tədqiqatçıları faydalana bilərlər.

## Ədəbiyyat

1. Abdullazadə F.H. Heydər Əliyev. Bakı: "XXI əsr" nəşr, 1998, 155 s.
2. Ağayev M., Məmmədova K. Heydər Əliyev və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi. // Azərbaycan məktəbi, 2000, № 2.
3. Əlizadə M.İ. Heydər Əliyev inamı və idrakı. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 228 s.
4. Əliyev P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006, 214 s.

**Г.Е. Магеррамова**

## Личность и идеалы Гейдара Алиева - традиции государственности как вершина нашей истории

## Резюме

Великий лидер Гейдар Алиев сыграл большую роль в сохранении традиций государственности с древней историей, сохранении и закреплении ее в будущих поколениях. Общенациональный лидер также обратил особое внимание на исторически сложившиеся традиции государственности. Он рекомендовал нам всегда сохранять древние корни традиций государственности, восстановления нашего исторического сознания и уделять пристальное внимание работе по воспитанию этого поколения. Это то, о чем эта статья.

**G.E. Maharramova**

## Heydar Aliyev's personality and ideals - statehood traditions as the peak of our history

## Summary

Great leader Heydar Aliyev played a great role in preserving the traditions of statehood with ancient history, preserving and consolidating it in future generations. The nationwide leader also paid particular attention to the historically established statehood traditions. He recommended that we always keep the ancient roots of the traditions of statehood, the restoration of our historical consciousness, and pay close attention to the work of bringing up this generation. This is exactly what the article says.

**Redaksiyaya daxil olub:** 08.02.2020